AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**Əlyazması hüququnda**

MEHMET SONER İBRAHİM OĞLU YILDIZ

# YUNUS ƏMRƏ İRSİNDƏ MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

B A K I – 2 0 1 5

Dissertasiya işi Bakı Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Kərim Alı oğlu Məmmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Zahid Abdulla oğlu Xəlilov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Vidadi Paşa oğlu Bəşirov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Pedaqogika və psixologiya kafedrası

Müdafiə "26" yanvar 2016-cı ildə saat $16^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " _24__" dekabr 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Gənc nəslin tərbiyəsi üçün vacib olan məsələlər sırasında hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət və cəmiyyət üçün layiqli vətəndaşlar yetişdirmək kimi müasir tələblər mövcuddur. Müsbət əxlaqi keyfiyyətlərin mahiyyəti, məqsədi, məzmunu və əhəmiyyətini düzgün aşılamaq müasir pedaqogikanın və bugünkü müəllimlərin qarşısında duran mühüm vəzifələrdəndir.

Davranış normaları mənəviyyatda, insanların qarşılıqlı münasibətində öz əksini tapır və insanın ailədə, cəmiyyətdə mövcud hərəkət qaydalarını tənzimləyir. Həyatda daha çox əhəmiyyət verilən, gözəl sayılan davranış normaları və hisslər əxlaqi ideallara çevrilir. Bütün bunlar müxtəlif dini, pedaqoji, siyasi təlimlərdə öz əksini tapır. Əxlaqi ideallar isə insanların daha çox əhəmiyyət verdiyi, gözəl saydığı davranış nümunələrini əks etdirir. Mənəvi ideallarda insanların arzuları ifadə olunur.

Orta əsrlərdə islam aləmində geniş yayılmış dini-fəlsəfi, mistik-mənəvi düşüncə və davranış sistemi olan sufizm də din və fəlsəfi, əxlaqi görüşləri bədii- estetik, etik, dini, fəlsəfi, həyati və s. tərzində, baxışlarda və təsəvvürlərdə bəşəriyyətə çatdırmağa çalışmışdır.

Sufilər təriqət ədəbiyyatının gözəl nümunələrini yaradanlara bədii sözün vasitəsilə gözəl əxlaq, kamil insan məsələlərinə yüksək qiymət vermişlər. Onlar həm də öz əsrlərində bir müəllim, mənəvi ata, nüfuzlu şəxs rolunu oynamışlar. Sufizmin Sənai Qəznəvi, Cəlaləddin Rumi, Nizami Gəncəvi, Əbu Həmid Qəzzali, Sədi Şirazi, Əbdürəhman Cami kimi tanınmış nümayəndələrinin irsini araşdırdıqda onlarda təsəvvüfün bir qədər pedaqoji istiqamətə yönəldiyini də görmək mümkündür. Sufizmin-Təsəvvüfün nümayəndələrinə tərbiyənin humanist konsepsiyasını işləyib hazırlamaq nəsib olmuşdur. Bu konsepsiya sonrakı əsrlərin bütün pedaqoji irsinə öz təsirini göstərmişdir.

Türk təsəvvüf mədəniyyəti çərçivəsində öz düşüncələrini dilə gətirən yaradıcı şəxsiyyətlərdən biri də Yunus Əmrə olmuşdur. Bu milli sufi şairin görüşləri türk şeirinin inkişafına qüvvətli təsir göstərmişdir. Onun əxlaqi görüşlərinin əsasında təsəvvüfün dini, hüquqi tərbiyə, ailə tərbiyəsi məsələləri, estetik-bədii baxışları dururdu.

Bu gün türk pedaqoji fikrinin söykəndiyi sütunlardan birini də Yunus Əmrənin ədəbi yaradıcılığı təşkil edir. Qeyd etmək lazımdır ki, bir çox tədqiqatçılar öz əsərlərində Orta əsr Şərq şairlərinin pedaqoji görüşlərini təhlil etmiş, onların lirikasının əsasını təşkil edən mövzu qaynaqlarını,

dünyagörüşlərini, sənətkarlıq xüsusiyyətlərini araşdırmışlar.

Belə şairlərdən biri də türk ədəbiyyatının məşhurlarından biri Yunus Əmrədir. Türkiyədə onun haqqında ədəbiyyat sahəsində məqalələr, tədqiqat işləri yazılmış və türk tədqiqatçı-alimlərindən M.Köprülü ("Türk edebiyyatında ilk mutasavvuflar"), M.Tatçı ("Yunus Emre ile bilgi", "Yunus Emrenin peyğamber sevgisi"), M.Akar ("Türk edebiyyatında mansum miracnameler"), A.Gölpnarlı ("Yunus Emre ve tasavvüf"), Z.Göyalp ("Türkçülüyün əsasları") və digərləri bu işdə yaxından iştirak etmişlər.

Azərbaycanda şairin poetik irsi haqqında məlumat qanedici deyildir. Bu isə Azərbaycanda XX əsrin 90-cı illərinə qədər mövcud olmuş sosialist ideologiyasından irəli gəlir. Uzun müddət Yunus Əmrənin çap olunmuş bir neçə əsəri ilə tanış olmaq və onlara yazılan ön sözlərdə ozan-şairin, sufi-şairin haqqında qısa məlumat almaq mümkün idi.

Azərbaycan ədəbiyyatşünaslığında tədqiqatçı-alim Azadə Rzayevanın "Yunus dünyasına vararkən..." ("Ədəbiyyat" qəzeti, 1993, 23 yanvar), Əbülfəz Əliyevin "Bizim Tanrı sevgimiz" ("Ədəbiyyat və incəsənət" qəzeti, 1991, 11 yanvar), Bəkir Nəbiyevin "Yunus Əmrə haqqında düşüncələr" (AMEA Xəbərləri, 1991, №3-4), Tofiq İsmayıl oğlu Hacıyevin "Yunus Əmrə və Füzuli" ("Ulduz", 1991, №6), "Yunus və Türkcəmiz" ("Ulduz", 1991, № 11-12) adlı məqalələrində yaradıcılığı əsrlərin sınağından keçmiş böyük türk şairinin zəngin irsi təhlil edilsə də, şairin yaradıcılığına ilk dəfə olaraq geniş şəkildə Xuraman Hümmətova yanaşmışdır. Onun 1998-cildə müdafiə etdiyi "Yunus Əmrənin lirikası" adlı dissertasiyası, həmin elmi işin müddəaları əsasında 2006-cı ildə çap etdirdiyi "Yunus Əmrə" adlı monoqrafiyası bu sahədə atılan ilk addımdır. Bu tədqiqat işlərində şairin poeziyasının mövzusunun götürüldüyü sufi düşüncə tərzinə, sənətkarlığına, dil-üslub özəlliklərinə, Azərbaycan və türk ədəbiyyatına, ümumilikdə bütün türk dünyasına göstərdiyi təsirə ilk dəfə ətraflı şəkildə toxunulmuşdur.

Qeyd etmək lazımdır ki, dünya ədəbiyyatının bir çox sənətkarları kimi, türk dünyasının yorulmaz aşıiqi Yunus Əmrə irsinə də Azərbaycan pedaqoji elmində də toxunulmamışdır. Şairin yaratdığı ədəbi məktəb pedaqoji nöqteyi-nəzərdən əsaslı surətdə işlənilməmişdir. Yunus Əmrə yaradıcılığının pedaqoji istiqamətləri, burada qoyulan mənəvi tərbiyə məsələləri təhlil olunmadığından tədqiqat işi üçün seçilən mövzunun "Yunus Əmrə irsində mənəvi tərbiyə məsələləri" kimi müəyyən edilməsini qərara almışıq.

**Tədqiqatın obyektini** Yunus Əmrənin poeziyası təşkil edir.

**Tədqiqatın predmetini** Yunus Əmrə irsində mənəvi tərbiyə məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi** Yunus Əmrənin poetik yaradıcılığında əxlaq tərbiyəsinin aşılanması yollarının, sufizmin (təsəvvüfün) pedaqoji baxışları vasitəsilə tərbiyənin insan həyatında oynadığı rolun aşkara çıxarılmasıdır. Burada şairin əxlaq tərbiyəsi haqqında poetik dillə yazılmış sufi traktatı araşdırılmışdır.

**Tədqiqatın fərziyyəsi.** Yunus Əmrənin əxlaq tərbiyəsinə dair görüşlərinin obyektiv şəkildə öyrənilməsi təsəvvüfün pedaqoji konsepsiyasını dərindən başa düşməyə imkan verər; Yunus Əmrənin milli kökdən və təsəvvüfdən irəli gələn tərbiyəvi fikirləri müasir cəmiyyətin pedaqoji şüurunun yaranması və formalaşmasında bir məhək daşı rolunu oynaya bilər.

Tədqiqatın məqsədindən və işçi fərziyyəsindən asılı olaraq qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

1. Yunus Əmrənin yaşadığı dövrə, həyat və yaradıcılığına qısa nəzər salmaq;
2. Yunus Əmrə yaradıcılığının, onun təsəvvüf görüşlərinin gənc nəslin tərbiyəsinə göstərdiyi təsiri araşdırmaq;
3. Şairin yaradıcılığının mənəvi əsaslarını təşkil edən fəlsəfi-dini, estetik mahiyyətini açmaq;
4. Yunus Əmrənin tərbiyənin tərkib hissələri-əxlaq, estetik, hüquq tərbiyəsi haqqında təsəvvüf düşüncə tərzini təhlil etmək;
5. Yunus Əmrə əsərlərində qoyulan əxlaqi tərbiyə məsələlərinin araşdırılaraq orta məktəbdə öyrənilməsinin metod və vasitələrini müəyyən etmək;
6. Sinifdənxaric işlərdə Yunus Əmrə yaradıcılığının nümunəsində təsəvvüfdə əxlaq tərbiyəsinə verilən qiyməti aşkara çıxartmaq;
7. Yunus Əmrə əsərlərində əxlaq tərbiyəsinin öyrədilməsinin hansı əhəmiyyət daşıdığını müəyyən etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətdiq olunan prinsiplər, metodlar, vasitələr və nəzəri müddəaların məcmusu təşkil edir.

Araşdırmalar zamanı qarşıya qoyulan vəzifələrə uyğun olaraq, aşağıdakı tədqiqat **metodlarından** istifadə edilmişdir:

1. Nəzəri təhlil. Mövzu haqqında mövcud pedaqoji və metodik ədəbiyyata müraciət edilmiş və onun hansı səviyyədə öyrənildiyinə dair nəticələr çıxarılmışdır.
2. Pedaqoji müşahidə. Bu zaman Yunus Əmrə əsərlərinin öyrədilməsi zamanı şagirdlərin şairə və onun əsərlərinə olan münasibəti,

davranış tərzləri müşahidə edilmişdir.

3. Pedaqoji eksperiment. Görülən işlərin təhlili və şagirdlərin əxlaq tərbiyəsində, dünyagörüşlərinin formalaşmasında əldə olunan nəticələri təsdiq etmək məqsədilə dərslər keçirilmişdir.

Tədqiqat zamanı eksperimentin aşağıdakı mərhələlərinə müraciət edilmişdir:

1. Müəyyənedici;
2. Öyrədici;
3. Yoxlayıcı.

Eksperiment Türkiyə Respulikası İstanbul-Sultanbəyli Atatürk Orta məktəbin və Balıkəsir-Savaştəpə-Nəcib Fazil Qısakürək Anadolu Liseyinin, Konya/Akşehir Selcuqlu Liseyinin 7-ci siniflərində, Bakı şəhər M.Hacıyev adına adına 116 saylı məktəbin 7-ci sinfində və Azərbaycan Bakı Türk Dəyanət Vəqfi Liseyin 8-ci sinifində aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Ümumilikdə sufi dünyagörüşündə tərbiyə məsələləri araşdırılır:

- Yunus Əmrə yaradıcılığında ilk dəfə olaraq vətənpərvərlik, əxlaq, ailə, hüquq, estetik tərbiyə məsələlərinə məsələləri araşdırılır;
- Yunus Əmrə yaradıcılığının dini-fəlsəfi əsaslarına aydınlıq gətirilir;
- Yunus Əmrə yaradıcılığındakı əxlaq tərbiyəsi məsələlərinin orta məktəblərdə öyrədilməsi və təbliği istiqamətləri müəyyən edilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Elmi işdə Yunus Əmrənin təsəvvüf baxımından mənəvi tərbiyə sahəsindəki fikirlərinə dair irəli sürülmüş elmi müddəalar və təhlillər pedaqogika nəzəriyyəsini, mənəvi təbiyə ilə bağlı pedaqoji anlayışları yeni ideyalarla zənginləşdirəcək, gənc nəslin əxlaqi, hüquqi, dini, estetik tərbiyə sahəsində pedaqoji inkişaf xüsusiyyətlərinin nəzərə alınmasının imkan və yollarının elmi əsaslar üzərində qurulmasına kömək edəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Təsəvvüf əxlaq tərbiyəsinin tədqiqi sahəsində Yunus Əmrə yaradıcılığının təhlili vasitəsilə mövcud boşluğu qismən də olsa doldurmağa yönəldilib.

Dissertasiyadakı faktiki materiallar və əldə edilən nəticələr müəllimlər, ilahiyyatçılar, şairin irsini pedaqoji baxımdan araşdıran tədqiqatçılar üçün bir baza rolunu oynaya bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Yunus Əmrə yaradıcılığında əxlaqi ideallarin formalaşmasında təsəvvüf dünyagörüşü mühüm təsir göstərmişdir;
- Yunus Əmrənin zəngin bədii yaradıcılığında əxlaqi, hüquqi, dini, fəlsəfi, estetik və ailə tərbiyəsi ilə bağlı ideyalar Türkiyədə pedaqoji fikrin

inkişafına güclü təsir göstərmişdir;

-Yunus Əmrə əsərlərinin orta məktəbdə öyrədilməsi şagirdlərdə milli-mənəvi dəyərlərə sədaqət, əxlaqi-mənəvi yetkinlik və saflıq kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları və nəticələri Bakı Slavyan Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Müəllimlər İnstitunun Elmi Xəbərlərində, Doktorantların və Gənc Tədqiqatçıların XVIII Respublika Elmi Konfransının, Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransının materiallarında çap olunmuş məqalələrdə, konfrans materiallarında əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, on bir yarımfəsli özündə birləşdirən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **"Yunus Əmrənin həyatı, dövrü və yaradıcılığı"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil ***"Yunus Əmrənin həyatı və onun yaşadığı dövr"*** adlanır. Burada Türk ədəbiyyatının və mədəniyyətinin yetişdirdiyi görkəmli simalardan biri kimi Yunus Əmrənin yaşadığı dövr, həyat və yaradıcılığı haqqında məlumat verilir.

Yunus Əmrənin həyatı barədə məlumatın azlığını onun doğulduğu və yaşadığı dövrün çox qarışıq olması ilə əlaqələndirirlər. Osmanlı Bəyliyinin meydana çıxmasında XIII əsr Anadolusunda mövcud olan sosial, siyasi və iqtisadi həyatın böyük rolu vardır. Osmanlı xanədanı tarix səhnəsinə çıxdığı XIII yüz ilin sonlarına qədər türkləşmə və islamlaşma vəzifəsini sona yetirmiş bir vəziyyətdə idi. Bunun təməlinin 1071-ci il Malazgirt döyüşündən də əvvəl qoyulması məlumdur. Həmin döyüşdə qazanılan qələbə isə Anadolunun qısa müddətdə tamamlayacağı fəthinin başlanğıcını təşkil etmişdi.

1176-cı ildə II Kılıç Aslanın Bizans üzərində əldə etdiyi möhtəşəm qələbə Anadoluda türklərin gələcək taleyini həll edən ən önəmli faktorlardandır. Bu qələbəylə həm qısa zamanda türklərin Anadoluda məskunlaşacağı bir daha təsdiqlənmiş, həm də Qərbi Anadoluya gedən yollarda əsas maneələr aradan qaldırılmışdır. XIII əsrin əvvəllərində Çingiz xanın şərqdən-qərbə doğru fəthlərə başlaması Türküstanda qalmış Oğuzların digər qisminin də Azərbaycan və Anadoluya köç etməsinə səbəb

olmuşdur. Bu da öz növbəsində hər iki bölgədə iki yeni və böyük türk yurdunun yaranmasıyla nəticələnmişdir.

Belə ki, 1243- cü ildə monqol orduları Səlcuq hökmdarı II Qiyasəddin Keyxosrovun ordusunu məğlub edir, Anadoluda hakimiyyət yavaş-yavaş Elxanilərin əlinə keçməyə başlayır və 1303-cü ildə Anadolu Səlcuq hakimiyyəti süqut edir.

Anadoluda türk xanədanının bərqərar olunmasında böyük rolu olan Ərtoğrul Qazinin oğlu Osman Qazi 1299-cu ildə Osmanlı dövlətini qurur. Ağ keçə üstündə taxta çıxan Osman Qazinin böyük hakimiyyət səriştəsi nəticəsində ölkədə elm, sənət inkişaf etmiş, dövlətin siyasi və iqtisadi qüdrəti xeyli artmışdır. XIII-XIV əsrlərdə Osmanlı dövlətinin ərazisi də genişlənərək 95.000 kvadrat kilometrdən 500.000 kvadrat kilometrə çatmışdır.

Həyatının təxminən 60 ilini belə bir ziddiyyətli dövrdə yaşayan Yunus Əmrə 14-cü əsrin əvvəllərində Osmanlının yüksəlişinin və qosqoca bir imperiyanın tarixin səhnəsinə çıxmasının şahidi olmuş və belə demək mümkünsə, ömrünün şərəf və qürur dolu ən gözəl anlarını yaşamışdı. Yunus Əmrə Porsuq çayının Sakaryaya töküldüyü yerdə-Sərfli kəndində 1238-ci ildə doğulmuşdur. O, mədrəsə təhsili görmüş, Tapdıq Əmrə adında şeyxin şagirdi olmuşdu.

O, Mövlana Cəlaləddin Ruminin məclislərinin iştirakçısı olmuşdur. Anadolunun bir çox kəndlərini gəzmiş, Azərbaycana və Şama da səfər etmişdir. Ayrı-ayrı şeirlərində Osman Qazi və Orxan Qazi dövrü sufilərindən Geyikli Baba və Balım Sultanın adları çəkilir. Aşıqpaşaoğlu da qeydlərində Yunus Əmrənin Orxan Qazi dövründə (1326-1360) yaşadığını göstərir. Bütün bu biliklərin işığında onun XIII yüzilliyin ortaları ilə XIV yüzilliyin əvvəllərindəki dövr arasında yaşaması qənaətinə gəlmək mümkündür.

XII əsrdə şöhrət qazanmış Xoca Əhməd Yəsəvi məktəbi XIII-XIV əsrlərdə Yunus Əmrə məktəbi ilə əvəzləndi. Yunus Əmrə təsəvvüf ədəbiyyatında elə bir cığır açdı ki, sonradan gələn türk sufi şairləri, aşıqlar onun sənət yolu ilə getməli oldular. O, sufi elminin sirlərini mürşidi olan Tapdıq Əmrədən öyrənmişdir. Tədqiqatlar göstərir ki, 40 il müəllimindən irfan elmininin sirlərini öyrəndikdən sonra təriqətə girmiş, ömrünün sonuna kimi ilahilər söyləmişdir. Yunus Əmrənin yaradıcılğına Mövlanə Cəlaləddin Ruminin təsiri gözə çarpır. Elə Yunus Əmrənin mənzumələrinin bir qisminin əruz ilə yazılması bundan xəbər verir.

Yunus Əmrənin indiyə qədər çap olunmuş divanlarının heç birində dördlükdə yazılmış şeir şəkli yoxdur. Ancaq şairin yeddiliyində, səkkizliyində, onbirliyində yazması haqqında mütəxəssislərin fikirləri

maraqlıdır. Əldə olan şeirlərinin əksəriyyəti, heca vəzninə çox bənzəyən Yunus onbirliyinin çoxu əslində əruz vəznindədir. Ancaq onun bir çox onbirlikdə olan şeirləri hesabdadır və bunları qoşma hesab etmək olar.

Bəzi hesablamalara görə Yunusun divanında 25 qoşma, daha doğrusu onbirlik vardır. Divanda əsas yeri onaltı hecalı şeir tutur (156 şeir, ikinci yerdə on dörd hecalı şeir gedir, 137 şeir və s.)[1]

Yunus Əmrə xalq ozanı idi. Təmiz türk dilinin bayraqdarı, "Vəhdəti vücud" fəlsəfəsinin qaranlıqlarına nüfuz edən bir filosof idi. O, sufizm fəlsəfəsini sadə xalq dilində, əsasən heca vəznində yazdığı qoşmalarda, gəraylılarda, ilahilərdə, eləcə də əruz vəznində yaratdığı qəzəl və məsnəvilərdə ifadə etmiş, türk şeirini yüksək bədii səviyyəyə qaldırmış, özündən sonra yaranan Türkiyə, Azərbaycan və Türkmən ədəbiyyatlarına güclü təsir göstərmişdir. O, düşüncələrini dövrün türk təsəvvüf mədəniyyəti çərçivəsində dilə gətirən sufi şair idi.

Birinci fəslin ***"Yunus Əmrə əsərlərinin gənc nəslin tərbiyəsində rolu"*** adlanan ikinci yarımfəsli şairin türk insanının mənəvi inkişafına, dini-əxlaqi tərbiyəsinə olan marağından bəhs olunur. Tərbiyəni insan həyatı üçün vacib sayan və öz sözü, sazı ilə gənclərə örnək olan şəxsiyyətlərdən biri də Yunus Əmrə idi.

Yunus Əmrə məktəbindən ondan sonra gələn nəsillərin tərbiyəsində istifadə etmişlər. Onun şeirləri böyüməkdə olan insanların özünütərbiyəsində mühüm rol oynamışdır. O, İslami inanc hopmuş, özünə xas ifa etdiyi şeirlərində varlıq, bilik, eşq, əxlaq və insanla bağlı fəlsəfi dünyagörüşü ifadə etmişdir. Əsərlərində insan, insanlıq və insani dəyərlər üzərində israrla duran Yunus Əmrə üçün ilahinin yaratdığı bu bəşər övladını Həqqə üz tutaraq təmizlənməyə, Dosta-üzü Həqqə doğru getməyə çağırırdı. Yunus Əmrənin üstünlük verdiyi digər insani xüsusiyyətlər sırasında mərdlik, yardım əlini uzada bilmək, elmə, təhsilə can atmaq kimi amillər də mövcuddur. O, dünyanın ötəri olduğunu xatırladaraq, həyatda ikən edilən hər bir işin o biri dünyada insanın qarşısına çıxacağını bildirir. Yunus Əmrənin söz divanı fateh bir mədəniyyətin kəskin söz qılıncıdır.

Gənc nəsil onun şeirlərindən yoldaşlıq, təvazökarlıq, mərdlik, cəsarətlilik, işgüzarlıq, əməksevərlik, təşəbbüskarlıq, açıqgözlülük, səmimilik, səxavətlilik, həssaslıq, nəzakətlilik kimi ən nəcib əxlaqi keyfiyyətləri əxz edirdi. Şairin əsərləri gənc nəslin tərbiyəsində bir təhsil və təbliğat rolunu oynamışdır. Onlarda vətənpərvərlik və vətəndaşlıq hisslərinin güclən-

---

[1] Hümmətova X. Yunus Əmrə. Bakı: Elm, 2006, s.131.

dirilməsi, gələcəyin bir şəxsiyyəti kimi yetişməsinə kömək etmişdir.

Birinci fəslin üçüncü yarımfəsli "***Yunus Əmrənin əsərlərində əxlaq tərbiyəsinin öyrədilməsinin əhəmiyyəti***" adlanır. Burada bildirilir ki, Yunus Əmrənin yaradıcılığı türk əxlaq tərbiyəsinin inkişafına qüvvətli təsir göstərmişdir. Onun məhz türkçülük adət-ənənələrindən, türk əxlaqından və İslam əxlaqi dəyərlərindən qidalanan tərbiyəsi, düşüncə tərzi və yaradıcılığı bir çox nəsillərin həyata baxışlarının formalaşmasında mühüm rol oynamışdır. Məhz onun şeirlərinin məqsədi saf əxlaqa malik, kamil, vətənpərvər insan yetişdirmək olmuşdur. Yunus Əmrə öz sazı, sözü ilə xalqına xidmət etmişdir. Əxlaqi düşüncə tərzi insanın cəmiyyətdəki rolunu və mövqeyini, yaşayış şəraitini müəyyən edir. Böyük Yunus Əmrənin təhsil, təlim, tərbiyə və şəxsiyyətin inkişafı ilə bağlı hikmət dolu fikirləri o qədər zəngin, geniş və dərindir ki, bu zəngin irsə tez-tez müraciət edilməsi vacibdir.

Yunus Əmrənin özünəməxsus pedaqoji görüşləri vardır və onlar tərbiyənin bütün növləri ilə əlaqəlidirlər. Burada əxlaq tərbiyəsinin məzmununu təşkil edən bu mövzular önə çıxır: 1. Əməksevərlik. 2. İnsanpərvərlik. 3. Həmrəylik. 4. Yoldaşlıq və dostluq. 5. Vətənpərvərlik. 6. Düzlük və doğruçuluq. 7. Halallıq. 8. Sadəlik və təvazökarlıq.

Yunus Əmrə yaradıcılığının öyrənilməsi bir çox aspektdən əhəmiyyətlidir. Belə ki, şagirdlər onun ideallarını mənisəyərkən başa düşürlər ki, insanın kamilləşməsində, yaşadıqları cəmiyyətdə, doğulub boya-başa çatdıqları torpaqda, ailədə, həmişə münasibətdə olduqları dostlarının arasında sayılıb-seçilmələri, hörmət sahibi olmaları üçün elmin, təhsilin, təlim və tərbiyənini rolu çox böyükdür. Yunus Əmrəyə görə insanlar mərifətli, elmli, adamlarla oturub-durmalıdır ki, həmin keyfiyyətlər onların əməllərində ifadə edilsin.

Yunus Əmrənin yaradıcılığında ailə tərbiyəsi, estetik tərbiyə, əmək tərbiyəsi bir-birini tamamlayır. Onun şeirləri ilə yaxından tanış olan yeniyetmə başa düşür ki, maariflənmək, elmli olmaq insanın zəkalı olmasına imkan yaradır. Vətənin səadəti və xalqının azadlığı üçün mübarizəyə həmişə hazır olmaq lazımdır. Vətən məhəbbəti isə əxlaq tərbiyəsinin ən ali pilləsini təşkil edir.

Yunus Əmrə yaradıcılığının təbliği gənclərdə gözəl əxlaqi sifətlər, gözəl duyğular yaradır. Estetika və əxlaq, dinin əxlaqa verdiyi bəzək şairin şeirlərində irəli sürdüyü əsas fikirlərdəndir. Çünki dinin təməlində gözəl əxlaqlı olmaq durur. İnsanın ruhuna ən çox zövq verən hal gözəl əxlaqdır. Hər insan düzgünlüyü, səmimiliyi, şəfqəti, mərhəməti, gözəl sözü, təvazökarlığı və mülayimliyi xoşlayır. Məhz bu fikirlərin böyük Yunusun şeirləri vasitəsilə şagirdlərə çatdırılması onlarda gözəl mənəvi hisslər

yaradır, onları daxilən gözəlləşdirir. Bu şeirlər vasitəsilə qəlblərin gözəlliyi üzə çıxır. Yunus Əmrə yaradıcılığını düzgün təhlil və təbliğ etməklə uşaqlara hərtərəfli təsir göstərmək mümkündür. Türk dünyasının böyük söz ustadının həyatı və yaradıcılığı bundan sonra da insanların həyatı öyrənmələrində onlara yaxından köməklik göstərəcək, böyük əxlaq sahibi, əsl vətəndaş, əsl vətənpərvər olmağa səsləyəcəkdir.

Tədqiqat işinin ikinci fəsli **"Yunus Əmrə yaradıcılığının mənəvi əsasları"** adlanır və altı yarımfəsildən ibarətdir.

*"**Yunus Əmrə yaradıcılığının fəlsəfi əsasları**"* adlı birinci yarımfəsil şairin yaradıcılığının fəlsəfi əsaslarına və onların gənc nəslin tərbiyəsində oynadığı rola həsr olunmuşdur. Yarımfəsildən aydın olur ki, İslam fəlsəfi fikrinin formalaşmasında heç şübhəsiz ki, islam dininin banisi, dünya miqyasında böyük və nadir şəxsiyyət sayılan Məhəmməd peyğəmbərin çox ciddi təsiri olmuşdur.

Məhəmməd peyğəmbərin kəlamları xeyirxahlıq, humanizm, ümumbəşərilik, beynəlmiləlçilik ideyaları ilə yoğrulmuşdur. O, əxlaqi keyfiyyətlər, davranış qaydaları haqqında bir çox müdrik fikirlər söyləmiş və bu fikirlər müqəddəs Qurani-Kərimdə, həmçinin hədislərdə öz əksini tapmışdır. Quran öz İlahi dəvətində insanları əqli nəticələr vasitəsilə Allaha, mələklərə və Axirət gününə inam bəsləməyə səsləyirdi. Lakin fəlsəfə müsəlmanlar arasında xüsusi bir elm şəklində VIII əsrdən etibarən geniş yayılmağa başlandı. Bu, bir tərəfdən müsəlmanların sıralarında ilahiyyat məsələləri ilə bağlı ciddi ixtilafların baş qaldırdığı, digər tərəfdən isə Abbasi xəlifələrinin yunan, hind və iran fəlsəfə kitablarını ərəb dilinə tərcümə etdirib, geniş yaydıqları zamana təsadüf edir. Hələ ilkin mərhələlərdən başlayaraq, İslam alimləri bütün əqli elmləri fəlsəfə kimi tanıyırdılar.

İslam təsəvvüfünün Vəhdəti-Vücud təlimindən doğan idrak sistemi sufizmin epistemoloji əsasını təşkil edir. Bu epistemoloji təlim ezoterik və ya irfani elmə söykənir. Arifi-billahın (sufi qnostik) üçün Mütləq Varlığın isim və sifətlərinin təcəllası olan dünya və onun dərk edilməsi bütün zamanlarda eyni olmamışdır.

Bu təzadlı dərketmə prosesində elmlə haqqın dərk edilməyəcəyi artıq XII yüzilliyə qədər məlum idi. Arifi-billah dərk etmək istədiyi Vücudu-Mütləqdə əriməyincə, masuvadan tam qopmayınca, uca yaradanı duya bilmir. Cüzin tama çatması, dərkedənin dərk olunanla birləşməsi üçün sufi eşqdən gələn elmi, ilahi elm kimi qəbul edir. Bütün hallarda Mütləq Varlığın atributlarının axıra qədər Yunus Əmrənin fəlsəfi-dini baxışlarının formalaşmasında orta dövrlərin vəhdəti-vücud fəlsəfəsi və onun üzərində

qurulan sufi təlimi mühüm rol oynamışdır[1].

Yunus Əmrə yaradıcılığında da belə fəlsəfi duyumu müşahidə etmək olar. Yunus Əmrə bir dərvişdir. O, sufi yoluna girmiş bir haqq aşığıdir. Yalnız təriqət mənsubiyyətinə görə deyil, dünyagörüşünün eyni köklərdən olması etibarilə də şair Əhməd Yəsəvinin yaradıcılığını davam etdirən, eyni zamanda bu ədəbi xəzinəyə özünəməxsus şəkildə yeni məna, yeni rəng verən şəxsdir. Sufiliyin xalq arasında yayılmasında, yəni islami xüsusiyyətlərin türk ictimaiyyətinə çatdırılmasında Əhməd Yəsəvinin Şərq türk aləmində etdiyini Yunus Əmrə də Qərb türklərinin arasında etmişdir.

XIII-XIV əsrlər sufi şairləri "Qurani-Kərim"ə istinad edərək Allah sevgisini və rəhmətini xalqa çatdırırdılar. Yunus Əmrə yaradıcılığının da fəlsəfi-dini kökünü məhz sufi təlimləri və onların İlahi qüvvəyə olan məhəbbəti təşkil edir. Yunus Əmrə şeirlərində azadlıq anlayışı mənəvi azadlıq kimi ifadə olunur. Şairə görə mənən azad olan insanı fiziki cəhətdən məhv etmək, sındırmaq mümkün deyil. Onun üçün könül azadlığı, din sərbəstliyi milli dünyagörüşü ilə bağlıdır. Haqq aşiqi Yunus təsəvvüf ideyalarını xalqın ruhuna daxil etməyə çalışır. Yunus Əmrə insanları barışığa, dostluğa çağırır. Birlik iqtisadi milli dünyagörüşünə, türkçülük baxışlarına əsaslanır. Türk insanı öz ailəsini, evini, doğma torpağını, xalqını ağır, çətin günlərdə də bir olmağa çağırırdı. Yunus Əmrədə birlik ideyası tarixi, milli köklərə çox yaxındır.

Yunusun varlıqların Allah sevgisindən, İlahi birlikdən, bir tək nurdan yaradılması fikrindən irəli gələn qardaşlıq anlayışı yüksək bir təfəkkürün məhsulu, ülvi bir görüşdür. Yunusun humanizmi sadəcə Allahdan insana qədər uzanıb qalmır, həm də addım-addım bütün varlıqları bürüyən bir sevgi fikrinə dönür. Göründüyü kimi, şairin sevgi dünyasında əsl, həqiqi humanist elə Allahın özüdür. Yunus Əmrə hesab edirdi ki, Haqqı gerçəkdən sevənlər üçün bütün insanlar qardaşdır.[2]

İkinci fəslin ikinci yarımfəsli ***"Yunus Əmrə yaradıcılığının estetik mahiyyəti"*** adlı ikinci yarımfəslində Yunus Əmrə yaradıcılığında estetik tərbiyənin mahiyyəti araşdırılır. Yarımfəslə görə Yunus Əmrə gözəlliyə insanın və təbiətin yaradıcılıq məhsulu kimi deyil, Uca Tanrının bu dünyaya, canlı və cansız nə varsa, bütün yarananlara bəxş etdiyi bir nemət kimi baxır. "Qurani-Kərim"də Peyğəmbərimizin diqqətəlayiq bir sözü vardır:

---

[1] İslam əxlaqı. Bakı: Araz, 2012, s.25

[2] Tatçı M. Yunus Emrenin hayatı / Yunus Emre divanı. Ankara: Kültür Bakanlığı yayınları, 1991, s.37

“Allah gözəldir və gözəlliyi sevir.” Burada daha sonra deyilir: “And olsun ki, Biz dünya səmasını (yerə ən yaxın göy qəndillərilə (ulduzlarla) bəzədik.” Və yaxud “Biz yer üzündə olanları onun (sakinləri) üçün bir zinət yaratdıq ki, onlardan hansının daha gözəl olduğunu yoxlayıb ayırd edək.”

Yunus Əmrənin estetik baxışları təsəvvüfdən doğur və onun yaradıcılığı ilə tanışlıq zamanı yaradılan və yaranan hər bir əşyaya, canlıya yüksək bədii zövq formalaşdırır. Şair onu dinləyən gənclərə gözəllik axtarmaq həvəsinin, gözəl sənət zövqünün insanın fitrətində olduğunu söyləyirdi. Yunus Əmrə yaradıcılığı gerçəkliyin gözəlliyini elə dəqiqliklə ifadə edir ki, estetik qavramanın mənimsənilməsi asanlaşmış olur. Sadə və aydın dil üzərində qurulan lirika öz estetik gözəlliyi ilə insan şüurunda özünə yer tapır, estetik tərbiyənin formalaşmasına şərait yaradır.

Yunus Əmrə yaradıcılığında estetik tərbiyə məsələlərini belə ümumiləşdirmək mümkündür:

1. Yunus Əmrədə estetik tərbiyəyə insanın dünyaya yanaşma, əşya və hadisələri gözəllik qanunlarına uyğun olaraq qiymətləndirmək bacarığının formalaşdırılmasına yönəldilmiş məqsədyönlü sistem kimi baxılır;
2. Şairə görə daxili gözəllik Allaha olan məhəbbət hisslərində ifadə olunur;
3. Estetik tərbiyənin, estetik hiss və duyğuların ən təsirli vasitələrindən biri qəlbdəki gözəllikdir;
4. İnsanın zahiri, ağlı, əxlaqı, davranışı, danışığı gözəl olmalıdır. Əməli hərəkətin, praktiki fəaliyyətin gedişatını nizamlayan irfan estetik tərbiyənin mayasını təşkil edən ünsürlərdən biridir;
5. Şair sözə yüksək qiymət verir və sözün gözəlliyini insana çatdırır. Zəngin obrazlar, rəmzlər, Tanrı-bəndə, bəndə və eşq münasibətləri və digər anlayışlar estetik hisslərin tərbiyəsinə səbəb olur;
6. Böyük sufi şairinin yaradıcılığından aydın olur ki, İslamda sufizm həmişə mövcud olmuşdur. Məhz buna görə də, sufizmdə estetik hisslərə və onların tərbiyəsinə həmişə böyük diqqət verilmişdir.

Bütün bunların pedaqoji prosesdə şagirdlərə çatdırılması mənəvi tərbiyənin mənbəyi kimi qiymətləndirilir.

***“Yunus Əmrə yaradıcılığında türk islam əxlaqı tərbiyəsi”*** adlı yarımfəsildə şairin yaradıcılığının böyüməkdə olan nəslin dini tərbiyəsinə göstərdiyi təsir haqqında məlumat almaq mümkündür. Yarımfəsildən aydın olur ki, İslamda tərbiyə məsələsi sadəcə olaraq, insana gözəl əxlaq və faydalı biliklər vermək demək deyildir. Tərbiyə daha geniş anlamda başa düşülərək insanın yaşadığı cəmiyyətin inkişafına öz töhfələrini verməsi, onu hər cür düşmən təcavüzlərindən müdafiə etməsi, xalqının adət və

ənənələrini, dilini, dinini qoruması, ona hörmət etməyə çalışmasıdır. Yunus Əmrə tərbiyəyə məhz islami adətlər və dünyagörüşü baxımından yanaşır. Onun hər bir sözü, hər misrası gənc nəslin tərbiyəsinə və özünütərbiyəsinə səbəb olur. Həyatda pislikləri görərək onlardan dərs almaq, nəticə çıxarmaq, yaxşılıqlardan və yaxşılardan isə nümunə götürmək Yunusun gənclərə verdiyi həyat dərsi idi.

Yunus Əmrə İslamı ən güclü tərbiyə vasitəsi kimi görürdü. Peyğəmbərin Quran ayələrini öz əsərlərində əks etdirən Yunus Əmrənin pedaqoji yaradıcılığını aşağıdakı kimi təsvir etmək olar:

1. Yer üzünün bütün canlılarına, canlı varlıqların əşrəfi və tacı olan insanlara qayğı və məhəbbət;
2. Torpağa, doğma yurda, əməyə, əmək adamlarına, xalqa dərin məhəbbət;
3. Haqqı, ədaləti qorumaq, xeyirxahlıq, elm öyrənmək, elmin faydasını dərk edib, onu xalqın xidmətinə vermək;
4. Ümumbəşəri norma və əxlaq qaydalarını qoruyub təkmilləşdirmək; böyüyə, ata-anaya hörmət etmək, nəzakətli olmaq, əmanətə xəyanət etməmək, insani hissləri təcəssüm etdirmək;
5. Qadınlara hörmət və ehtiramla yanaşmaq, təmiz, pak olmaq və s.

Peyğəmbərin kəlamları sırasında insana, canlılara, təbiətə qayğı mühüm yer tutur.

Yunus Əmrəyə görə islamda tərbiyənin metodoloji prinsiplərini belə müəyyənləşdirmək mümkündür:

1. İnsanın mütləq tərbiyəçisi Allahdır. Çünki insanı yaradan, ona fitrət verən, tədricən kamilləşməsinə qərar verən Odur;
2. Tərbiyə şəriət normaları əsasında qurulmalıdır;
3. Tərbiyə konkret obyekti, məqsədi olan bir prosesidir;
4. Tərbiyə tədricilik prinsipi əsasında planlaşdırılmalı, tərbiyəvi tədbirlərin biri o birini tamamlamalı, yüksələn xətlə inkişaf etməli, tərbiyə olunanların yaşı, fərdi və cinsi xüsusiyyətləri nəzərə alınmalıdır.

Yunus Əmrə dostluğu uca tutur, dostluqda sədaqət hissini yüksək qiymətləndirirdi. O, hamını Haqq sözünü söyləməyə, həyatda doğru, düzgün bir insan olmağa çağırırdı. Həmişə qəlbinin dərinliyində insanı haqqa, ədalətə, düzlüyə, saflığa çağıran, onu haqsızlıqdan qorumağa çağıran "mən"indəki "mən"in ülviliyinin nurunda yeriyən aşıq insanlarda bu həqiqəti görmək istəyir. Həqiqət aşığın amalıdır və o, bu həqiqəti gəzir.[1]

---

[1] Pənah G. Həqiqət aşiqi Yunus Əmrə // Xalq cəbhəsi, 2012, 11 fevral, s.14.

Öz dövrünün təhsilli və ziyalı adamlarından biri kimi Yunus Əmrə düzgün həyat keçirən və xalqına fayda verən insanların yetişdirlməsində tərbiyənin əvəzolunmaz rolunu görmüşdür. O, islami əxlaq tərbiyəsinin məqsəd və vəzifələrini təsəvvüf baxımından görür və izah etməyə çalışırdı. Çünki təsəvvüfün son məqsədi Allahın və Onun yaratdığı aləmin son məqsədidir. Bu məqsəd öz gerçəkliyini yalnız cəmiyyətdə tapa bilər. Cəmiyyətdən kənarda kamil insan, şəxsiyyət anlayışı mövcud deyildir. İnsan kamilləşmək üçün öz mənəviyyatı, əxlaqı və ictimai fəaliyyəti ilə ətrafındakılara bir örnək olmalıdır.

***“Yunus Əmrə yaradıcılığında vətən əxlaqı tərbiyəsi məsələləri”*** adlı növbəti yarımfəslində gənclərdə Vətənə məhəbbət hissinin, vətənpərvərliyin tərbiyəsi məsələlərindən söhbət açılır. Vətənə, doğma torpağa məhəbbət hissi Yunus Əmrənin yaradıcı irsinin əsas xətlərindən birini təşkil edir. Yunus Əmrənin şeirlərində doğulub böyüdüyü torpağın ətri, yaşadığı cəmiyyətə xas xüsusiyyətlər ifadə olunmaqdadır. O, doğulub-böyüdüyü cəmiyyətin ideyasını, ruhunu şeirlərində verə bilmişdir.

O belə hesab edirdi ki, onun yaşadığı torpağın da, cəmiyyətin də, qəbilənin də taleyini Tanrı müəyyənləşdirir. Əgər Tanrı istəməsə, kimsə türk cəmiyyətinin hökmdarı-xaqanı hesab oluna bilməz.

“Tanrı” obrazının transformatorları olan hökmdar-qəhrəmanlardır ki, onlar xalqın, etnosun, etnik-mədəni sistemin təfəkkürünün bilavasitə ifadəsidir. Tanrı türk insanını, türk cəmiyyətini, türk dövlətini və türk hökmdarını hifz edir. Yunus Əmrənin şeirlərində bu düşüncə tərzinə rast gəlmək mümkündür.

Yunus Əmrə yaşadığımız həyatda insanı sufi baxışlarına uyğun qərib, vətənsiz hesab edirdi. O, göstərirdi ki, hər bir insan öz vətəninə-Allah diyarına getməlidir. Vətən əxlaqı özünü həm də aid olduğu milləti, xalqın adət-ənənələrini, dilini, mədəniyyətini, məişət və həyat tərzini yaşatmaqda göstərir. Yunus Əmrə başdan-ayağa, iliyinə, qanınadək türk idi. Əmrə xalqın arasında dolaşır, söylənilən atalar sözlərini, ənənəvi deyişmələrini eşidir, onun düşüncə və qavrama üslubunu mənimsəyirdi. O, sadə adamların şeir və musiqilərini dinləyir, göstərdikləri xalq oyunlarına tamaşa edirdi. Məhz buna görədir ki, Yunus Əmrənin təkkələrdən süzülüb gələn ilahilərinə nağılların, lətifələrin, Nəsrəddin Xocadan başlayaraq xalq hazırcavablığının, Qaragözlə Meydan oyununun ətri hopmuşdur. Vətən əxlaqının ilk əsaslarından birini “xalqa doğru” prinsipi təşkil edir. Bir millətin ziyalısı, aydınlısı kimi Yunus Əmrə həmişə xalqının arasında olmuşdur. Onun əsas məqsədini xalqdan milli mədəniyyət tərbiyəsi almaqla yanaşı, xalqa mədəniyyət aparmaq üçün xalqa doğru getmək təşkil etmişdir

ki, bu da gənc nəslin milli şüuru, milli iftixar hisslərinin formalaşmasında dəyərli vasitə hesab edilə bilər.

***"Yunus Əmrə yaradıcılığında hüquqi tərbiyə məsələləri"* adlı yarımfəslində** göstərilir ki, "Şagirdlərin hüquq tərbiyəsi dedikdə, onun şəxsiyyətinə mütəşəkkil, mütəmadi və məqsədyönlü şəkildə təsir göstərilməsi əsasında onda hüquqi şüur və mədəniyyətin, düzgün davranış adət və vərdişlərinin formalaşdırılması, qanuna, hüquqa hörmət hissinin, cəmiyyətə zidd hallara qarşı dözülməzlik münasibətlərinin tərbiyə olunması başa düşülür. Hüquq tərbiyəsi bir çox hallarda əxlaq tərbiyəsi ilə yaxınlaşır və hətta onun bir istiqamətini təşkil edir. İslama görə haqları əsasən təyin edən və məhdudlaşdıran Allahdır. Çünki Allah hikmət sahibidir".[1]

Yunus Əmrə Allahın köməyinə sığınmaqla, haqlarının müdafiə edildiyini bildirir. Şairin fikrincə insan öz çırağını Allahın eşqinə yandırmalı, onun qoyduğu yola əməl etməlidir ki, həm canı, həm malı, həm də dini, namusu toxunulmaz qalsın. Yunus Əmrəyə görə, haqqı bilmək yaradılışdan peyğəmbərə xas keyfiyyət idi. O, haqqı öz içində tapdığından, özünü bildiyindən Allahını da tapmışdı. Aşiq Yunus öz yaradıcılığında Quran ayələrinə müraciət edir və burada insanların qarşısına qoyulan hüquq və vəzifələrdən söhbət açırdı.

O, çiyninə saldığı sazla el-el, oba-oba gəzərək, Allahın qanunlarını, haqq-ədaləti təbliğ edirdi. Haqq aşığı Haqqın istəyini insanlara çatdırır, onları Haqqın qoyduğu yolla gedərək, yaşadıqları cəmiyyətin tələblərinə əməl etməyə çağırırdı. Şair hamını mehriban olmağa, bir-birinə kömək etməyə səsləyirdi. Yunus Əmrənin bütün misralarında humanizm, insanpərvərlik hisslərinin tərbiyəsi qabarıq şəkildə diqqəti cəlb edir. Beləliklə, orta məktədən başlayaraq Yunus Əmrə irsinin öyrənilməsi və təbliği şagirdlər hüquq normalarına riayət etmək, öz hüquq və vəzifələrini anlamaq ruhunda tərbiyə edir, onlarda hüquqi şüuru formalaşdırır.

***"Yunus Əmrə yaradıcılığında ailə tərbiyəsi məsələləri"*** adlı yarımfəsildə böyüməkdə olan nəslin tərbiyəsində ailənin oynadığı rol və Yunus Əmrənin ailəyə verdiyi əhəmiyyət açıqlanır. Yarımfəsildə bildirilir ki, ailə tərbiyəsi-valideynlər tərəfindən müəyyən keyfiyyətlərin, bacarıqların formalaşdırılması üçün önəmli tərbiyəvi təsir prosesidir. Cəmiyyətin həyatında ailə çox mühüm yer tutur. Hər şeydən əvvəl o, cəmiyyətin və onun strukturunun təkrar formalaşmasının əsas mənbəyidir. Ailə sosial

---

[1] Abbasova L. Tərbiyənin milli zəmində qurulmasında sinif müəlliminin rolu. Bakı: 2006, Mütərcim, s.10.

varlığın zəruri tərəfi, cəmiyyətin ilkin özəyidir. Yunus Əmrə yaradıcılığında ailə tərbiyəsi məsələsi "Qurani-Kərim"də olduğu kimi öz ifadəsini, elmi həllini tapmışdır. Ailədə tərbiyə, ata-anaya, böyüklərə hörmət, qənaətcil olmaq, körpələrə qayğı ilə yanaşmaq, qadın haqlarını gözləmək və digər məsələlər irəli sürülmüşdür. "Bəqərə" surəsinin 83, 170-ci ayələrində Allaha, ata-anaya bağlılıq ifadə olunur. "Allahdan başqa heç kəsə ibadət etməyin, ara-anaya yaxşı olun", "Biz atalarımızın getdiyi yola tapınırıq" kimi ayələr insanları ailə tərbiyəsinin həyatda mühüm rol oynadığını bildirir.[1]

İnsanın ailəsinə qarşı məsuliyyətli olduğu maddi ehtiyaclardan başqa, bir də mənəvi ehtiyacları vardır. Onlara öyrənməyi vacib olan imanın əsaslarını və tabe olacaqları əxlaq əsaslarını öyrətmək, himayəsi altında olduğu insanların borcudur. İslamın ailə münasibətləri sahəsində həyata keçirdiyi tədbirlər mütərəqqi xarakter daşıyır. İslama görə nikah fəzilətdir, saleh əməldir, Allaha ibadət Aktıdır. Yunus Əmrə də şeirlərində ailəyə Allahın xoşuna gedən bir iş kimi baxmışdır. Çünki ailə kiçik bir cəmiyyət olaraq, insanı pis yola düşüb ləkələnməkdən qoruyur.

Uşaq tərbiyəsi Yunus Əmrəyə görə Allahın razı olduğu, bəndənin bəyəndiyi, dövlətinə, vətəninə, millətinə, ailəsinə, cəmiyyətə və bəşəriyyətə faydalı insan kimi yetişməsidir. Övladlar doğulduqdan sonra əllərindən tutaraq, onları gələcəyə hazırlamaq ən vacib hədəflərdən biri olmalıdır. Ailə insana kiçik yaşlarından yaxşı yoldaş, dost seçməyə kömək etməlidir və yoldaşları ilə necə davranmaq barəsində ona kömək etməlidir. Təsəvvüf dünyagörüşündən çıxış edən Əmrə insanın ən yaxın dostunun yalnız Allah olduğunu bildirirdi.

Sufi görüşündən yararlanan insan kimi Yunus Əmrə ailənin öz ruhu olduğuna inanırdı. Ruhun isə öz dünyası, qəlbi və sevgisi vardır. Bu ruh ailədə toplaşmış hər bir şəxsin formalaşmasına, kamilləşməsinə, tərbiyə olunaraq həyatda addımlamasına kömək etməlidir.

Yunusa görə ailənin ruhunun qəlbi sevgi yeridir. Sevgi olmayan qəlb ölmüş deməkdir. Qəlbdə ya dünya sevgisi, ya da Allah sevgisi olar. Beləliklə, şairin əsərlərindən aydın olur ki, o, şəxsiyyətin təşəkkülü prosesinə ailənin güclü təsirini nəzərə alaraq, cəmiyyətdə ailənin düzgün tərbiyəvi təsirini təşkil etmək üçün ona birinci dərəcəli əhəmiyyət verir. Orta məktəbdə Yunus Əmrə irsi ilə tanışlıq ailədə uşaqların əxlaqi tərbiyəsinin yaxşılığa doğru daha da mükəmməlləşməsinə təsir göstərir.

[1] Qurani-Kərim/Azərbaycan dilinə tərcümə və şərhi. Bakı: Əl-Huda, 2006, s.16, 26.

Dərs zamanı Yunus Əmrənin verdiyi işıqdan özü üçün pay götürən kiçik insan həm özünün, həm də, ailəsində mühitin dəyişməsinə təsir edir.

Tədqiqat işinin üçüncü fəsli **"Yunus Əmrə əsərlərinin orta məktəbdə öyrədilməsinin əsas istiqamətləri"** adlanır və o, üç yarımfəsildən ibarətdir. Bu fəslin birinci yarımfəsli ***"Tədris prosesində Yunus Əmrə əsərlərinin orta məktəbdə öyrədilməsi metodları"*** adlanır. Yarımfəsildə müasir təlim metodlarından istifadə etməklə şairin yaradıcılığının öyrədilməsi üsulları haqqında məlumat verilir. Hər bir təlim materialı tərbiyələndirici xarakterə malikdir. Ədəbi əsərlər də mühüm tərbiyə vasitəsidir. Tərbiyə işində ədəbiyyatın-sözün çox güclü bir vasitə olduğu söz ustalarının diqqətini cəlb etmişdir.

"Təlim prosesinin özünəməxsus cəhətlərini, ədəbiyyatın söz sənəti olması kimi mürəkkəb məsələləri nəzərə almaqla belə nəticəyə gəlmək olar ki, ədəbiyyat dərslərində istifadə olunan əsas üsullar bunlardır: ifadəli oxu, müəllimin sözü, müsahibə, müəllimin tapşırığı ilə şagirdlərin müstəqil işi"[1].

Qeyd etmək lazımdır ki, Yunus Əmrənin əsərlərində irəli sürdüyü fikirlər və ideyalar böyüməkdə olan nəslin tərbiyəsində mühüm rol oynayır. Onun zəngin irsi hələ həyatda öz yerini tapmamış, bərkdən-boşdan çıxmamış kiçik insanlara bir çox dəyərli fikirlər söyləyir. Daxili gözəlliyə malik ideal insan konsepsiyası sanki önə çıxaraq, gözəl əxlaqi sifətlər aşılayır. Məhz buna görə də Yunus Əmrə yaradıcılığının orta məktəbdə, hələ aşağı siniflərdən öyrədilməsinin özünəməxsus xüsusiyyəti vardır. Yunus Əmrə əsərlərini öyrədərkən müəllim şagirdlərin fəal dərketmə və yaradıcılılıq fəaliyyətinə təkan və istiqamət verməyi bacarmalıdır.

O, şagirdlərə yalnız ədəbiyyata dair nəzəri bilik verməməli, həm də ən başlıcası, əsərin ideya istiqamətini necə öyrənməyi onlara anlatmalıdır. Ədəbiyyat üzrə dərslər elə qurulmalıdır ki, məktəbdə konkret bədii materialın öyrədilməsi prosesində şagirdlərin bədii təfəkkürününün inkişafı düzgün həyata keçirilə bilsin. Bütün bunları tədqiqatımızda əsas götürmüşük.

Tədris prosesinin müvəffəqiyyəti şagirdlərin ədəbiyyatdan hazırlıq səviyyələrindən, təhlil edilən yazıçının yaradıcılığındakı və ümumiyyətlə, ədəbiyyat tarixindəki mövqeyindən, müəllimin özünün elmi hazırlığından və təcrübəsindən asılıdır.

Yunus Əmrənin həyat və yaradıcılığının tədrisi zamanı qoyulan başlıca məqsəd kurikulumdakı məzmun standartlarının reallaşdırılmasını və təlim nəticələrinə nail olunmasını təmin etməkdir.

---

[1] Babayev A. Orta məktəbdə ədəbiyyat tədrisi. I hissə. Bakı: 1976, Maarif, s. 136.

Bu zaman başlıca olaraq, aşağıdakı vəzifələrin yerinə yetirilməsinə xidmət göstərilir:

- Yunus Əmrənin həyat və yaradıclığının təhlili zamanı müəllim-şagird fəaliyyəti üzvi şəkildə tam əlaqələndirilir;
- Dərs zamanı müəllimin planlaşdırmadan qiymətləndirməyədək bütün fəaliyyəti istiqamətləndirilir;
- Proqramda dərsə ayrılan vaxt davam etdiyi müddətdə şagirdlərdə fəallıq və müstəqillik, həyati bacarıqlar formalaşdırılır.

Müəllim bədii əsərin təhlili və müəllifin həyat və yaradıcılığı ilə bağlı işi planlaşdırarkən özünün bütün pedaqoji tələb və imkanları da nəzərə almalıdır.

Biz, Bakı şəhəri Xətai rayonu M.Hacıyev adına 116 saylı məktəbin 7-ci sinifində Yunus Əmrənin yaradıcılığı ilə tanış olmaq məqsədilə eksperiment keçirmişik. Ekperiment zamanı əvvəlcə şairin yaşadığı dövr, ictimai-siyasi mühiti, həmin dövrdə mövcud əxlaqi tərbiyənin əsasları haqqında mühazirə hazırlanmış və müəyyən edilmiş vaxt müddətində şagirdlərə məlumat verilmişdir. Sonra şairin “Mən bir əcəb elə gəldim” şeiri tədris olunmuşdur.

Əsərin təhlilinə başlamazdan əvvəl mətn hissələrə bölünmüş, şagirdlər şeiri növbəli şəkildə oxumuş. Hər hissənin oxunuşundan sonra oxunmuş hissənin məzmununa dair suallar verilmişdir. Cavablar dinlənildikdən sonra növbəti hissənin oxunmasına başlanılmışdır. Sonra şagirdlər şeirdə ifadə edilən fikirlər barəsində təklif edilmiş suallara cədvəldə öz münasibətlərinin bildirmişlər.

İstanbul-Sultanbəyli Atatürk Orta məktəbin 7-ci sinfində də Yunus Əmrənin yaradıcılığı ilə bağlı eksperiment aparılmışdır.

Şagirdlərə Yunus Əmrə yaradıcılığı haqqında məlumat verdikdən sonra “Mən nə deyim, mən neyləyim?” misralı şeirinin tədrisinə başlanılmışdır. Şeirlə daha yaxından tanış olmaları üçün şagirdlərə onu növbəli şəkildə oxumaq təklif olunmuşdur.

Oxu tamamlandıqdan sonra tanış olmayan sözlərin, eləcə də bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə vaxt ayrılmışdır. Qeyd etmək lazımdır ki, bədii təsvir və ifadə vasitələrinin hansı növdə (epitet, təşbeh, bədii sual və s.) olduğunu da şagirdlərin qeyd etmələri vacibdir.

Venn diaqramından istifadə etməklə şagirdlərə şeirdə xatırlanan "halal" və "haram" anlayışlarını başa salınmışdır. Sual-cavab aparıldıqdan sonra şagirdlər iki qrupda birləşib (hər qrup iki bənd üzərində işləməklə) fikirlərini ikihissəli gündəlikdə yazmışlar. Gündəlikdə şagirdlərin şeirdə diqqətlərini daha çox çəkən səbəblər və onlara olan münasibətləri əks olun-

muşdu. Ümumiyyətlə, dərsdə şagirdin əldə etdiyi nailiyyətin qiymətləndirilməsi mərhələsi də çox mühüm rol oynayır. Bu zaman şagirdin özünüqiymətləndiməsi baxımından da çıxış etmək vacibdir. Qiymətləndirmədə müşahidə üsulunun böyük əhəmiyyəti vardır.

V-VIII siniflərdə ədəbiyyat dərslərində ən çox istifadə olunan öyrədici yazılardan biri də suallara cavab yazmaqdır. Bu yazıların aparılmasına xüsusi saatlar ayrılmır. Onlar dərs prosesində və evdə həyata keçirilən inşalardır. Suallara cavab yazıları şagirdlərin inşa vərdişlərinə yiyələnmələrində həlledici rol oynayır. Onları, əsasən, iki qrupa ayırmaq olar: Bədii parçaların məzmununun şagirdlərə öyrədilməsinə xidmət edən suallara cavab yazıları; bədii parçaların ideyasının şagirdlərə öyrədilməsinə xidmət edən suallara cavab yazıları. Məsələn, şagirdlərə aşağıdakı sualları vermək olar:

Sual: "Çağırayım Mevlam səni" şerinin müəllifi kimdir?

Cavab: Şeirin müəllifi türk dünyasının böyük şairi Yunus Əmrədir.

Sual: O, neçənci əsrdə yaşayıb yaratmışdır?

Cavab: Yunus Əmrə XIII əsrin sonu - XIV əsrin əvvəllərində yaşayıb yaratmışdır.

Sual: Şair "Mevlam" dedikdə kimə müraciət edir?

Cavab: Şair "Mevlam" dedikdə "İlahi"yə, Uca Tanrıya müraciət edir.

Sual: Burada hansı tarixi şəxsiyyətlərin adı çəkilir?

Cavab: Burada Musa Peyğəmbər, Yaqub Peyğəmbər, İsa Peyğəmbər, Yunus Peyğəmbər kimi tarixi şəxsiyyətlərin adları çəkilir.

Sual: Hansı dini-tarixi yerin adı çəkilir?

Cavab: Şeirdə Musa Peyğəmbərin ilk vəhy aldığı Tur dağının adı çəkilir.

Suallardan məlum olur ki, onlar şairin həyat və yaradıcılığı haqqında məlumatın verilməsinə, şeirin məzmunun şagirdlərə öyrədilməsinə xidmət edir.

Tədris prosesinin müvəffəqiyyəti şagirdlərin ədəbiyyatdan hazırlıq səviyyələrindən, təhlil edilən yazıçının yaradıcılığından və ümumiyyətlə, ədəbiyyat tarixindəki mövqeyindən, müəllimin özünün elmi hazırlığından və təcrübəsindən asılıdır.

Qeyd etmək lazımdır ki, Yunus Əmrənin əsərlərinin orta məktəbdə tədrisi şagirdlərdə vətənə, doğma yurda sədaqət, humanizm və xeyirxahlıq, borc və məsuliyyət, böyüyə hörmət, sadəlik və təvazökarlıq, yoldaşlıq və dostluq, düzlük və doğruçuluq kimi hisslər tərbiyə edir. Belə müsbət mənəvi keyfiyyətlərə yiyələnmək böyüməkdə olan nəslə imkan verir ki, onlar ailədə, məktəbdə və cəmiyyətdə hörmət və nüfuz qazansınlar, həyatda

fəal mövqe tuta bilsinlər.

***“Sinifdənxaric işlərdə Yunus Əmrə ideyalarının öyrədilməsi”*** adlı yarımfəsildə sinifdənxaric işlərdə Yunus Əmrə yaradıcılığının öyrədilməsi və onun əhəmiyyəti məsələləri göstərilir. Qeyd olunur ki, "sinifdənxaric iş o zaman qənaətbəxş hesab oluna bilər ki, o, təhsil və tərbiyə nöqteyi-nəzərindən məzmunlu olsun və bu işin məfkurəvi istiqaməti məktəbin qarşısında qoyulan vəzifələrə uyğun gəlsin. Bu iş təlimedici, təhsilverici, tərbiyələndirici səciyyə daşısın."[1] Ədəbiyyat üzrə sinifdənxaric işlərin bəzi növləri kütləvi xarakter daşıyır. Məsələn, ədəbi gecələr, disputlar, ekskursiyalar bura aiddir. Bəzi iş növlərinə isə divar qəzetləri, dərnəklər, köməkçi məşğələlər, ədəbi sərgilər, viktorinalar daxil edilir. Sinifdənxaric işlərin həyata keçirilməsində məktəbin fənn müəllimləri və şagird heyəti yaxından iştirak edir.

Bu tədbirlər müəllim və şagird fəaliyyətini üzvi şəkildə əlaqələndirir, təlim prosesində şagirdlərdə fəallıq və müstəqilliyi, həyati bacarıqları formalaşdırır, şagirdlərin bədii ədəbiyyata, mütaliəyə marağını gücləndirir, onlara milli və ümumbəşəri mənəvi dəyərlərin aşılanmasını təmin edir; məktəbliləri axtarışa, tədqiqatçılıq fəaliyyətinə, fərqli mənbələrdən biliklər əldə etməyə sövq edir; onlarda məntiqi, tənqidi, yaradıcı (bədii) təfəkkürü inkişaf etdirir.

Yunus Əmrənin həyatı və əsərlərinin təbliği məqsədilə onun yaradıcılığının tədrisində də bir sıra sinifdənxaric tədbirlərin keçirilməsi məqsədəuyğundur. Bununla əlaqədar olaraq, məktəblərdə müxtəlif tədbir formaları-kitab sərgiləri, oxucu konfransları, ədəbi-bədii gecələr, kitab müzakirələri, şeir gecələri, kitab xülasələri, sual-cavab gecələri, söhbətlər müəllimlərin yaxın köməkçisinə çevrilə bilərlər. Bu tədbirlərin keçirilməsində məqsəd məktəbliləri türk poeziyasının korifeyi Yunus Əmrə haqqında daha da məlumatlandırmaqdan ibarətdir.

Görkəmli şairin, böyük söz ustadının həyat və yaradıcılığına həsr olunmuş oxucu konfransının əsas məqsədi şagirdlərdə Türk poeziyasına, Türk ədəbiyyatının tarixinə və Yunus Əmrənin yaradıcılğına maraq oyatmaqdır. Oxucular konfransını təşkil edərkən onun təşkili və məqsədi haqqında əvvəlcədən geniş izahat işi aparılır, müxtəlif elanlar, plakatlar və digər bədii vasitələrlə bu konfransın təhsil və tərbiyəvi əhəmiyyəti yaxşı

---

[1] Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif, 1968, 291 s.

izah edilir.

Yunus Əmrə yaradıcılığını açan sinifdənxaric tədbirlər sırasında tamaşa-viktorinaların da rolunu danmaq olmaz.

Tamaşa-viktorinanın planı aşağıdakı kimi sistemləşdirilir və həmin mərhələlərə uyğun olaraq həyata keçirilir:

Mövzu: "Dünya Yunus Əmrənin gözü ilə" (tamaşa-viktorina)

Məqsəd:

1. Yunis Əmrənin sadə süjetli əsərlərindəki təsvirləri məzmununa uyğun ifadəli oxumaq.

2. Mövzu ilə bağlı fikirləri məntiqi ardıcıllıqla şərh etmək.

Tapşırıq:

1. Şeirlərindən seçilmiş parçaların bədii kompozisiyasının hazırlanması.

2. Şeirlərin və nəsr əsərlərindən parçaların ifadəli oxunması.

3. Qaliblərin seçilməsi qaydalarının müəyyənləşdirilməsi.

4. Aparıcıların sayının müəyyənləşdirilməsi və çıxışlar üçün mətnlərin hazırlanması.

5. Tamaşa-viktorinanın proqramının hazırlanması.

Təcrübəmizdə yuxarı sinif şagirdləri ilə birlikdə Yunus Əmrəyə həsr olunmuş disputların keçirilməsi də tərbiyəvi baxımdan böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, disput gənc nəslə öz ideal və arzularını, fikir və mülahizələrini söyləməyə, öz daxili aləmini üzə çıxarmağa imkan verən pedaqoji-psoxoloji prosesdir.

Disputun müvəffəqiyyəti onun mövqeyindən asılıdır. O, həyati, aktual olmalı, mühüm problem və məsələlərə toxunmalıdır. Düzgün seçilmiş mövzunun adı da düzgün tərtib edilməli, mübahisəli səslənməli, fikir oyatmalı, fəal mübarizəyə çağırmalıdır.

Sinifdənxaric məşğələlər zamanı ifadəli oxunun da böyük rolu vardır. İfadəli oxu, sualların düzgün qoyulması, materialın nəql edilməsi, məzmuna "sözlə" rəsmin çəkilməsi, əsərin səhnələşdirilməsi və digər tərzlərdən istifadə etmək səmərəli nəticə verir. Beləliklə, ifadəli oxu dərsləri elə qurulur ki, bu dərslərdə şagirdlərin təhsili, tərbiyəsi və inkişafı vəzifələri vəhdətdə yerinə yetirilsin. İfadəli oxu üzrə müsabiqə də keçirmək mümkündür. Yunus Əmrə əsərlərinin ifadəli oxusu üzrə müsabiqənin planı aşağıdakı mərhələlər üzrə həyata keçirilməsi məqsədəuyğundur:

Mövzu: "Daşdı yenə dəli könül" (bədii əsərlərin ifadəli oxusu üzrə müsabiqə)

Məqsəd:

1.Təbiət mövzusunda əsərləri məzmununa uyğun ifadəli oxumaq.

2. İfadəli oxuda nitq texnikasının tələblərinə əməl etmək.

Tapşırıq:

1. Bədii əsərlərdən seçmələr, oxu xüsusiyyətlərinin aydınlaşdırılması.

2. Müsabiqənin şərtlərinin müəyyənləşdirilməsi.

3. Münsiflər heyətinin yaradılması.

4. Qaliblərin mükafatlandırılması qaydalarının müəyyənləşdirilməsi.

Yunus Əmrənin yaradıcılığı dünya ədəbiyyatı tarixinin ən parlaq və ən dəyərli, özünəməxsus səsi-sehri olan, özünün tərbiyəvi cəhətləri ilə seçilən, insanlara gözəl əxlaqi vərdişlər aşılayan səhifələrindəndir.

Türk dünyasının böyük şəxsiyyətləri sırasına daxil olmuş Yunus Əmrəyə həsr olunan sərgini hazırlayarkən belə bir tərtibat nümunəsindən istifadə etmək şagirdlərin bədii təfəkkürünün formalaşdırılması ilə yanaşı, müştərək türk mənəviyyatının təkmilləşməsinə təkan vermiş olur.

Müasir cəmiyyətdə elm və texnikanın sürətlə inkişaf etməsi, yeni texniki vasitələrin yaradılması ədəbiyyat dərsləri üzrə sinifdənxaric tədbirlərin həyata keçirilməsində də tətbiq oluna bilər. Yeni informasiya texnologiyalarının tətbiqi belə tədbirlərin keçirilməsi sahəsində də çox böyük imkanlar açır və bədii əsərlərin tətbiqi zamanı fəaliyyət dairəsini genişləndirir. Hər hansı bir ədəbi şəxsiyyətin həyat və yaradıcılığının, insanlığa töhfə kimi verdiyi bədii əsərlərin öyrənilərək təbliğ edilməsində, onların milli ruhundan doğan bədii və estetik zövqün aşılanmasında slaydların, elektron kitab sərgilərinin, video-çarxların hazırlanması çox yaxşı olar.

***"Aparılan eksperimental işin nəticəsi və onun qiymətləndirilməsi"*** yarımfəslində tədqiqatın elmi xarakterini təmin etmək məqsədilə eksperimental tədqiqat metodundan da istifadə olundu. Eksperimental tədqiqat işini Bakı Türk Dəyanət Vəqfi Liseyin 8-ci sinifində həyata keçirməyə çalışdıq. Dərsdə Yunus Əmrənin "Dostdan xəbər gəldi yenə" misrası ilə başlayan şeirinin tədrisi zamanı əvvəlcə Yunus Əmrə haqqında ümumi məlumat verdikdən sonra şeiri birlikdə oxuduq və onlara aşağıdakı suallara cavab hazırlamaq tapşırıldı. Əsərin məzmunu ilə tanış olmuş şagirdlərə suallar verildi, suallara cavablandırıldıqdan sonra növbəti mərhələ-əsərin təhlilinə hazırlıq başlandı.

Dərsin sonunda şagirdlər mətndə tanış olmayan sözlərin mənasını müəyyənləşdirdilər, öyrəndiyi yeni sözlərdən nitqlərində istifadə edərək mətni düzgün başa düşməyə çalışdılar. Əsərin ifadəli oxusuna düzgün riayət etdilər və suallara cavab verdilər. Məzmununa əsasən əsərin janrını müəyyən etdilər.

Formativ qiymətləndirmə müəyyən meyarlar əsasında aparıldı. Təlim məqsədləri, formalaşdırılan bacarıqlar qiymətləndirmə meyarlarının müxtəlif məzmunda olmasını zəruri edir. Dərsin vəsaitdəki nümunələr əsasında qurulması qiymətləndirmədə müəyyən meyarlardan istifadə etməyə kömək etmişdir. Qeyd etmək lazımdır ki, "fərqli məzmunda təşkil olunmuş dərslərdə isə qiymətləndirmə bu meyarlara yaradıcı yanaşmaqla (dəyişiklik və əlavələr etmək, yenilərini yaratmaqla) aparıla bilər."[1]

Beləliklə, təlim şagirdlərin tərbiyəsinə, tərbiyə isə insanın əxlaqi və zehni inkişafına təsir edir. məktəblərdə tədris edilən ədəbiyyat dərsləri gənclərin tərbiyəsinə xidmət göstərir. Sənət adamlarının, tanınmış ədiblərin, yazıçı və şairlərin yaradıcılığının ideya istiqamətlərini öyrəndikcə, şagirdlər obyektiv həqiqətlərin inkişafında mövcud cəhətləri və mübarizəni dərk edə bilirlər. Yunus Əmrənin həyat və yaradıcılığının, əsərlərinin tədrisi və təbliği də gənc məktəblilərin, gənc insanların gələcəyin qurucuları kimi yetişməsinə, kamil, müsbət əxlaqi vərdişlərə yiyələnməsində mühüm rol oynayır. Müəllimin pedaqoji-metodik ustalığı şagirdlərin əxlaqi tərbiyə vərdişlərinə yiyələnmələrinə kömək edir.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

Yunus Əmrə fəlsəfi-əxlaqi baxımdan öyrənilə bilinəcək bir şairdir. O, sadə xalq adamı, eyni zamanda şeirləri sultanların saraylarında, sufi məclislərində səslənən şair, ozandır. O, sadə bir həyat sürmüş sufidir. Daima haqq yolunda durmağa çalışmış bir filosofdur. Ona panteist-tam, bütün tanrıçı da deyilə bilər. Onun fikrincə Tanrı her şeydə, hər yerdə vardır.

XIII-XIV əsrlərin təsəvvüf ədəbiyyatının ən tanınmış simalarından biri sayılan Yunus Əmrənin yaradıcılığını pedaqoji cəhətdən öyrənmək, onun lirikasında əxlaqi tərbiyə məsələlərinin araşdırmaq mühüm əhəmiyyət kəsb edir. Şairin bütün ömrü boyu yaratdığı sənət nümunələrinin ana xəttini dini-fəlsəfi dəyərlər və bu dəyərlərdən doğan əxlaqi, hüquq, estetik tərbiyə və ailə tərbiyəsi məsələləri təşkil etmişdir. Yunus Əmrəyə görə Tanrının qoyduğu yolla getmək üçün ilk növbədə özünü tanımaq, özünü bilmək, sonra isə Tanrını dərk edib gizli sirlərə vaqif olmaq üçün tərbiyənin rolu böyükdür.

Şairin əxlaq və əxlaq tərbiyəsi ilə bağlı fikirlərini də aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. İnsan mənəvi təmizlənmə yolu ilə əxlaqi özünükamilləşməyə çatır;

---

[1] Ədəbiyyat. Müəllim üçün metodik vəsait: 5-ci sinif / B.Həsənli, S.Hüseynoğlu, Ə.Səfərova, Ə.Quliyev. Bakı: 2012, Təhsil, s.23.

2. Ətrafdakı insanlarla, Uca Tanrı ilə qarşılıqlı münasibətlərdə daxili mənəvi həyat üzə çıxır;

3. Şairin əxlaqi görüşlərinin əsasını insanpərvərlik ideyası təşkil edir.

4. İnsana məhəbbət hissinin tərbiyəsi Allaha olan məhəbbətin gücündən rəli gəlir;

5. Yunus Əmrənin yaradıcılığında xeyirxahlıq, yaxşılıq, düzgünlük, yalan danışmamaq kimi yaxşı sifətlər pisliyə qarşı qoyulur və yalnız Allahı sevərək pis xasiyyətlərdən, mənfi cəhətlərdən təmizlənməyin mümkün olduğu bildirilir;

6. Şairin lirik parçaları vasitəsilə insanlara aşılanır ki, insanın yüksək əxlaqının başlıca göstəricilərindən biri də onun sadəliyi, təvazökarlığıdır və bu fikirlər şairin sufi dünyagörüşündən irəli gəlir.

7. İnsanın son nəfəsinədək doğma torpağı sevməsinin vacib olduğu və bu əmrin Uca Tanrı tərəfindən bir tələb kimi irəli sürüldüyü Yunus Əmrənin yaradıcılığından keçən bir qızılı xəttə bənzəyir;

Apardığımız tədqiqat şairin pedaqoji ideyaları haqqında aşağıdakı **nəticələrə** gəlməyə imkan yaratmışdır:

- Yunus Əmrə türk tərbiyə sisteminə XIII əsrin sufi təfəkkür formasından baxır;
- türk dünyasının bu böyük sənətkarının əsərlərindən türk ailəsinin XIII əsrdə mövcud olan adətləri, dini inancları, milli əxlaqi şüurun formalaşması haqqında məlumat əldə etmək mümkündür;
- Yunus Əmrə insanın əqli zənginliyinin və əxlaqi saflığının formalaşmasına təsəvvüf baxımından yanaşır, sözü tərbiyədə ən mühüm amil sayır;
- Yunus Əmrənin bütün dini-fəlsəfi görüşlərinin əsasında İslam əxlaqi və İslam fəlsəfəsi durur. Şair həyatda hər bir məsələnin həllini məhz İslami dəyərlərdən çözməyə çalışır;
- Yunus Əmrə göstərir ki, sağlam mühit müsbət əxlaqi keyfiyyətlər yaradır;
- şairin fikrincə, insanın həm əqli zənginliyinin, həm əxlaqi saflığının əsasında Tanrıya olan məhəbbət hissi durur;
- Yunus Əmrəyə görə insanpərvərlik, humanist hisslərə malik olmaq insanlığın ən parlaq incisidir. Hər bir insan ilk növbədə Allahı sevməli, kamil insan kimi formalaşması üçün yalnız bu sevgidən istifadə etməlidir;
- şair mərdlik, yardım əlini uzada bilmək, elmə, təhsilə can atmaq kimi insani xüsusiyyətlərə üstünlük verir;
- şair elmə yüksək qiymət verir və Peyğəmbərimizin "beşikdən qəbir

evinədək oxuyun” kəlamını xatırladır, elmli olmağın Tanrının ən gözəl yaradılışı olan canlılar aləminin, təbiətin daxili aləminə nüfuz etməyin ən mühüm vasitə ola biləcəyini bildirir;

- Yunusun sufi tərbiyə sistemində digər tərbiyə növləri ilə müşaiyət olunan mənəvi tərbiyə ön yerə çıxır. O, insan şəxsiyyətinin bu və ya digər əxlaqi keyfiyyətlərini aşılayan bütöv bir sufi tərbiyə lüğətini işləyib hazırlamışdır;

- onun şeirlərindən yaşadığı türk torpağının doğma ətri duyulur. Bu isə yetişən nəsildə Vətənə, yaşadığı ocağa, ailəyə qarşı bir məhəbbət hissi oyadır;

- o, dünyanın nicat yolunu düzlükdə görür. Bu ideyanın indiki gənclər tərəfindən mənimsənilməsi ən aktual problemlərdəndir.

- dahi şairin hüquq tərbiyəsi ilə bağlı fikirlərinə görə cəmiyyətdə hər bir insan haqqı, ədaləti yüksək tutmalıdır. O, yaşadığı cəmiyyətdə mövcud dini qaydalara riayət etməyə, islamın hüquqi baxışlarını dərindən təhlil etməyə və bununla da gələcəkdə qanunpərvər bir vətəndaş olmağa çağırır ki, bu da gənc nəslin hüquq tərbiyəsində müstəsna əhəmiyyət kəsb edir.

- dahi şairin estetik baxışları da çox zəngindir. Həmin baxışların mərkəzində insan gözəlliyi dayanır, insanın daxili gözəlliyi yüksək mənəviyyatdan irəli gəlir. Onun bu fikir və ideyalarının gələcəkdə aşılanması estetik tərbiyənin əsas vasitəsi hesb edilə bilər.

- Yunus Əmrə yaradıcılığının orta məktəbdə, hələ aşağı siniflərdən öyrədilməsi böyüməkdə olan gənc nəslin əxlaqi tərbiyəsində və özünütərbiyəsində o cümlədən mill-mənəvi şüur, milli mənlik, vətən, millət təəssübkeşliyi, fədakarlıq, soykökünə bağlılıq hissləri oyatmaqda rolu böyükdür.

- Yunus Əmrənin Allah sevgisi insan sevgisini, insan sevgisi isə əxlaq tərbiyəsini də əhatə edir.

- Yunus Əmrənin əxlaq anlayışı Allah sevgisinin və insan sevgisinin də qaynaqlandığı İslam düşüncəsindən və türk ənənələrindən qaynaqlanır.

Yunus Əmrə irq, rəng, cinsiyyət, zənginlik və kasıblıq, mövqe, dil və din ayrı-seçkiliyi etmədən bütün insanlara necə davranılması lazım olduğunu şeirlərində ortaya qoyur. O, insaniyyət, xoş ünsiyyət, fədakarlıq, sədaqət, vəfa, yardım göstərmək, səbirli olmaq kimi gözəl əxlaqi xüsusiyyətlərə yiyələnməyin əhəmiyyəti üzərində dayanır. Pis əxlaqi sifətlərdən uzaqda durmağın vacib olduğunu göstərir. Yunus Əmrə fikirlərini öz sufi dünyagörüşü ilə sıxılmadan, böyük bir coşqunluqla ifadə edir.

Beləliklə, Yunus Əmrənin yaradıcılığında fəlsəfi, mənəvi əsasların araşdırılması göstərdi ki, gənclərin əxlaqi, mənəvi inkişafında tərbiyənin rolu əvəzedilməzdir.

Qədim türk dünyasının Yunus Əmrə adlı şair-aşığnın yaradıcılığının əsas qayəsi belədir: “Kamil insan, hər cür mənəvi dəyərlərə sahib olan insan məhz düzgün tərbiyənin nəticəsində formalaşa bilər”.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı **əsərlərdə** öz əksini tapmışdır:

1. Yunus Əmrə yaradıcılığının mənəvi qaynaqları // Pedaqoji Universitet Xəbərləri, 2013, №4, s.245-248
2. Yunus Əmrə yaradıcılığında hüquq tərbiyəsi məsələləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2013, №4, s.299-303
3. Yunus Əmrə yaradıcılığında əxlaq tərbiyəsi / Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, Bakı, 25-26 aprel 2013, s.504-505
4. Psikolojik danışmanlıq ve rehberlik nedir, nasıl yapılır? / Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Qafqaz Universiteti, Bakı, 25-26 aprel 2013, s.669-670
5. Türk dünyasının ozan şairi / Doktorantların və gənc tədqiqatların XVIII Respublika elmi konfransının materialları. Bakı, Mütərcim, II cild, 19-20 dekabr 2013, s.118-120
6. Yunus Əmrə əsərlərinin insan tərbiyəsindəki rolu // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2013, №4, s.299-303
7. Yunus Əmrənin şeirlərində tərbiyə məsələlərinin öyrədilməsinin əhəmiyyəti // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2014, №2, s.32-35
8. Нравственные ценности в творчестве Юнуса Эмре // Ученые записки Таврического национального университета им. В.И.Вернадского. Филология. Социальные коммуникации. Симферополь, 2014, т.27 (66), №3, с.417-421
9. Yunus Əmrə yaradıcılığının tədrisində sinifdənkənar tədbirlərin rolu // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2014, №3, s.217-221
10. Yunus Əmrə yaradıcılğında mənəvi dəyərlər // Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi Xəbərləri. 2014, №1, s.157-161
11. Yunus Əmrə əsərlərində türk islam əxlaqı anlayışı // Filologiya məsələləri. 2014, №3, s.311-316.
12. Yunus Əmrə əsərlərinin öyrədilməsində müəllimin rolu / Müəllim hazırlama siyasəti və problemləri. V Beynəlxalq konfrans. Bakı, 30 aprel-02 may 2015, s.442-443

**M.S.İ YİLDİZ**

## MORAL AND EDUCATIONAL ISSUES IN THE HERITAGE OF YUNUS EMRE

### SUMMARY

Today, one of the factors of the Turkish pedagogical thought is literary work of Yunus Emre. The poet's works played the role of propaganda and important education in the bringing up of young generation. Intensification of their patriotic and civic feelings helped to their growing up as a personality of the future. Religious-philosophical values and ethical, legal, aesthetic education and family education issues arose out of these values arranged the main line of artistic samples created all over the life of the poet. The young generation may possess to the noblest moral characteristics such as comradeship, modesty, manhood, encouragement, businesslike approach, diligence, initiative, keen-wittedness, sincerity, generosity, sensibleness, politeness while introducing with his poems. Teaching of Yunus Emre's creative work in secondary schools, even in lower classes plays a great role in moral education of the young generation and in self-education, also in creating of national and moral consciousness, national dignity, native land, nation fanaticism, heroism, attachment to its roots.

**М. С.И Йылдыз**

# ВОПРОСЫ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ В НАСЛЕДИИ ЮНУСА ЭМРЕ

## Р е з ю м е

Литературное творчество Юнуса Эмре один из столбов, на которые опирается сегодня турецкая педагогическая идея. Произведения поэта играют важную образовательную и пропагандисткую роль в воспитании молодого поколения. Они помогают вырасти личностью будущего, усиливая чувство патриотизма и гражданства. Основное направление созданных в течение всего жизненного цикла поэта являются философско-религиозные ценности и вопросы нравственного, правового, эстетического воспитания и семейного воспитания, возникших на основе этих ценностей. Молодое поколение, знакомясь с его стихами, обретают такие качества, как скромность, мужество, отвагу, предприимчивость, трудолюбие, инициативность, наблюдательность, искренность, щедрость, чувствительность, вежливость. Изучение творчества Юнуса Эмре в школах играет большую роль в воспитании подрастающего поколения, начиная с ещё с младших классов, в том числе пробуждая чувства национального духовного сознания, национального самосознания, страсти к родине, нации, преданности, привязанности к корням.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

На правах рукописи

**Мехмет Сонер Йылдыз Ибрагим**

# ВОПРОСЫ НАРВСТВЕННОГО ВОСПИТАНИЯ В НАСЛЕДИИ ЮНУСА ЭМРЕ

**5804.01 – Общая педагогика, история педагогики и образования**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2015**